No: 04 2025
https://doi.org/10.64400/ea25-4-02
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

## TARİX VƏ ANTROPOLOGİYA

# ƏFŞARLAR İMPERİYASI DÖVRÜNDƏ CƏNUBİ QAFQAZDA BAŞ VERƏN SİYASİ PROSESLƏRİN P.Q. BUTKOVUN TƏDQİQATINDA ŞƏRHİ

**Aynurə ƏFƏNDİYEVA**
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
**Yazışılan müəllif:* efendiyeva82@inbox.ru

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 05.12.2025*
*Nəşr edilmə tarixi: 22.12.2025*

**AÇAR SÖZLƏR:**
Cənubi Qafqaz, Nadir şah Əfşar, Əfşarlar dövləti, geosiyasi vəziyyət, hərbi yürüşlər

**XÜLASƏ**
XVIII əsrin birinci yarısı Cənubi Qafqazın siyasi tarixində son dərəcə mürəkkəb və ziddiyyətli proseslərlə səciyyələnirdi. Səfəvi imperiyasının tənəzzülü bölgədə dərin siyasi boşluq yaratmış, mövcud güc balansını pozmuş və Osmanlı ilə Rusiya imperiyaları arasında nüfuz uğrunda rəqabəti kəskin şəkildə gücləndirmişdi. Məhz belə gərgin və qeyri-sabit şəraitdə hakimiyyətə gələn Nadir şah Əfşar (1736–1747) region daxilində və qonşu imperiyalar müstəvisində dönüş yaradan fiqur kimi formalaşmışdır. Onun həyata keçirdiyi hərbi-siyasi islahatlar, mərkəzləşdirmə siyasəti və genişmiqyaslı yürüşləri həm Cənubi Qafqazın daxili siyasi dinamikasına, həm də daha geniş geosiyasi mühitə əhəmiyyətli təsir göstərmişdir. Nadir şahın hərbi kampaniyaları Cənubi Qafqazın siyasi mənzərəsini yenidən formalaşdırmaqda və Osmanlı–Rusiya münasibətlərinin mahiyyətini müəyyən dərəcədə dəyişməkdə həlledici rol oynamışdır.
P. Q. Butkovun “1722–1803-cü illər üçün Qafqazın yeni tarixi üçün materiallar” adlı əsəri bu dövrün hadisələrini Nadir şahın daxili idarəçilik modeli və xarici ekspansiya məqsədləri kontekstində hərtərəfli şəkildə təhlil edir. Təqdim olunan araşdırmanın məqsədi Butkovun Nadir şahın hərbi yürüşlərinə dair təsvirlərini və bu yürüşlərin Cənubi Qafqazın siyasi konfiqurasiyasına təsirini elmi baxımdan qiymətləndirmək, onun təsvir etdiyi hadisələrin dövrün real tarixi prosesləri ilə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirmək və bu məlumatların müasir tarixşünaslıqda necə şərh olunduğunu araşdırmaqdan ibarətdir.

## GİRİŞ

Nadir xan Səfəvi dövlətinin süqutu və ölkənin geniş ərazilərinin yadelli qüvvələr tərəfindən işğal edildiyi son dərəcə mürəkkəb bir tarixi mərhələdə ölkənin taleyinə həlledici təsir göstərən şəxsiyyət kimi meydana çıxmışdı. O, hərbi-siyasi bacarığı, strateji düşüncə tərzi və təşkilatçılıq qabiliyyəti sayəsində işğal altında olan Səfəvi torpaqlarının geri qaytarılması uğrunda uzunmüddətli və ardıcıl mübarizə aparmışdı. Nadir xanın yürüşləri nəticəsində Qafqazdan tutmuş Xorasanadək uzanan geniş bölgələrdə yadelli işğalına son qoyulmuş, əvvəlki Səfəvi sərhədlərinin böyük bir qismi bərpa edilmişdi. Bu uğurlar təkcə ölkənin ərazi bütövlüyünün təmin olunmasına deyil, həm də onun xalq arasında siyasi nüfuzunun və legitimliyinin artmasına xidmət etmişdi. Nadir xanın hərbi zəfərləri və dövlət daxilində nizam-intizamın bərpası onu taxt-taca iddia etmək baxımından Səfəvi şahzadələri ilə rəqabət apara biləcək qədər güclü şəxsə çevrilmiş, geniş ailə birliklərindən tutmuş tayfa başçılarına qədər müxtəlif ictimai-siyasi qüvvələrin dəstəyini təmin etmişdi.

1736-cı ilin yazında Nadir xan ölkənin siyasi strukturunu əsaslı şəkildə dəyişmək məqsədilə Araz və Kür çaylarının qovuşduğu Muğan düzündə möhtəşəm bir ümumimperiya qurultayı çağırdı. Bu qurultayda əyalət hakimləri, hərbi sərkərdələr, tayfa başçıları, din xadimləri və nüfuzlu zadəganlar iştirak edirdilər. Qurultayda Nadir xanın dövlət idarəçiliyi sahəsində fəaliyyəti, həyata keçirdiyi hərbi islahatlar və ölkəni dağınıq vəziyyətdən çıxarmaq sahəsində qazandığı nailiyyətlər geniş şəkildə müzakirə olundu. Nəticədə Nadir xan yekdilliklə şah elan olundu və bununla da Səfəvi sülaləsinin zəifləyərək faktiki olaraq fəaliyyətini dayandırdığı bir şəraitdə yeni bir imperiyanın — Əfşarlar dövlətinin — əsası qoyuldu. Bu hadisə həm İranın daxili siyasi tarixində, həm də Cənubi Qafqaz və Yaxın Şərqin geosiyasi mənzərəsində yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirilir.

**MÜZAKİRƏ**

Nadir şah 1736–1747-ci illər arasında hakimiyyətdə olduğu dövrdə həyata keçirdiyi xarici siyasət vasitəsilə Səfəvilərdən daha geniş ərazilərə sahib olmağı hədəfləmişdir. Bu məqsədə nail olmaq üçün o, ölkə daxilində hələ də köçəri həyat tərzi sürən böyük tayfa birliklərini özünə tabe etmişdir. Hərbi yürüşlər zamanı ələ keçirilən qənimətin bir hissəsini tayfa başçılarına verərək onların mövqelərini möhkəmləndirmişdir. Qənimətin əsas hissəsi əsgərlər arasında bölüşdürülmüş və bununla onların döyüş üçün lazım olan ləvazimatla təminatı yaxşılaşdırılmışdır. Çünki mümkün daxili üsyanların qarşısının alınması və fəthlərin uğuru birbaşa ordunun gücündən asılı idi. 1735–1738-ci illər arasında üsyan qaldırmış Baxtiyari tayfaları da məhz intizamlı və güclü ordu vasitəsilə itaətə gətirilmişdir (Yılmaz, 2012, s. 148).

Rus burjua tarixçisi P. Q. Butkovun qeyd etdiyinə görə, Nadir şah Osmanlı imperiyası ilə müharibəni uğurla yekunlaşdırdıqdan sonra bir il ərzində dövlət idarəçiliyinin möhkəmləndirilməsi, ordunun yenidən təşkili və yeni hərbi-strateji hədəflərin müəyyənləşdirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirmişdir (Бутков, 1869, ч. I, с. 207).

Butkovun qeyd etdiyinə görə, Nadir şah Osmanlı dövləti ilə sülh razılaşmasına nail olduqdan sonra xarici siyasət fəaliyyətində yeni istiqamətlər müəyyənləşdirməyə başlamışdır. Müəllif yazır " *O, ələ keçirdiyi hakimiyyəti yalnız daim onun ətrafında cəmlənmiş və müxtəlif bərbər tayfalardan toplanmış hərbi qüvvələrin dayağı hesabına saxlaya bilərdi. Bu ordunun mövcudluğunun təmin edilməsi isə ancaq onların mütəmadi olaraq müəyyən hədəflərə qarşı yönləndirilən hərbi əməliyyatlarda iştirak etməsi və əldə olunacaq qənimət hesabına saxlanılması ilə mümkün olurdu*" (Бутков, 1869, ч. I, с. 207-208).

Bu vaxt Qəndəhar əfqanlarının üsyanı və onların Moğol imperiyasının hökmdarı Məhəmməd tərəfindən dəstəklənməsi Nadir şahın diqqətini cənuba yönəltdi. 1738-ci ildə o, böyük hərbi qüvvə ilə Xorasana yürüş etdi, Qəndəhar qalasını ələ keçirdi və üsyanı amansızcasına yatırdı.

Nadir şah Qəndəharın mühasirəsi zamanı Dehlidəki Məhəmməd şahın yanına elçi göndərərək Əfqanıstandan Hindistan sərhədinə sığınan qaçqınların qəbul edilməməsini tələb etmişdi. Lakin Məhəmməd şah bu xəbərdarlığa məhəl qoymamış və müvafiq göstəriş verməmişdi. İkinci elçidən də nəticə əldə olunmadıqda, Nadir şah Əli Mərdan xan Şamlunu eyni tələblə Dehliyə göndərmiş, lakin bu dəfə də xəbərdarlıq nəzərə alınmamış, hətta elçi həbs edilmişdi. Məhəmməd şahın bu etinasızlığının əsas səbəbi, Nadirin Qəndahar kimi möhkəm istehkamı ələ keçirə bilməyəcəyi və bundan dolayı Hindistana irəliləyə bilməyəcəyi qənaəti idi (Yılmaz, 2012, s. 155-156).

Butkov Nadir şahın 60 minlik ordu ilə Hindistan istiqamətində hərəkətə başladığını, 1739-cu ilin yanvarında İndus çayını keçərək, Moğol imperiyasının paytaxtı Dehlini mühasirəyə aldığını və qısa müddət ərzində şəhəri ələ keçirdiyini yazır [Butkov, c. I, s. 208]. Lakin digər mənbələrin verdiyi məlumata əsasən, Moğol imperiyası qoşunları Nadir şahın irəliləyişinin qarşısını almaq məqsədilə Dehliyə təxminən 75 mil məsafədə yerləşən Karnal səmtində toplanmış və burada həlledici hərbi toqquşma baş vermişdir. Karnal döyüşündə moğol qüvvələrinin məğlubiyyətindən sonra Nadir şah Məhəmməd şahı da müşayiət etməklə 20 mart 1739-cu il tarixində Dehliyə daxil olmuşdur (Aksvörti, 2018, s. 258–265).

Butkovun verdiyi məlumata əsasən, Dehlidə baş vermiş qarışıqlıq zamanı 200 mindən artıq insan həlak olmuş, şəhər isə sistemli şəkildə talan edilmişdi. Nadir şah, Moğol hökmdarı ilə özünün müəyyən etdiyi şərtlər əsasında sülh müqaviləsi imzalamış və siyasi əlaqələri möhkəmləndirmək məqsədilə oğullarından birinin Məhəmməd şahın qızı ilə evlənməsini təmin etmişdir. Müəllif bu yürüş nəticəsində Nadir şahın Hindistanın "hesabsız xəzinələri ilə" geri döndüyünü qeyd edir. Butkov yazır: "*Milotun qeyd etdiyinə görə, əldə olunan xəzinənin dəyəri təqribən 1800 milyon rubl təşkil etmişdir. Digər tədqiqatçılar Nadir şahın Hindistandan çıxardığı sərvətlərin dəyərinin təxminən 85 milyon funt-sterlinqə bərabər olduğunu, əlavə olaraq, 1000 fil, 7000 at, 10 min dəvə, eləcə də Hindistandan İrana köçürülən çoxsaylı zərgərlər, sənətkarlar və digər peşə sahibləri bu sərvətin əsas tərkib hissəsini təşkil etdiyini bildirirlər. Ümumən tədqiqatçılar arasında hökm sürən yekdil qənaət ondan ibarətdir ki, Nadir şah Hindistandan misilsiz miqyasda xəzinə əldə etmişdir*" (Бутков, 1869, ч. I, с. 208).

Eyni zamanda, Butkov bu hadisənin geosiyasi nəticələrinə də diqqət çəkir. O, qeyd edir ki, Nadir şahın Hindistan yürüşü regionda siyasi sabitliyi pozmaqla bərabər, Avropa dövlətlərinin, xüsusilə İngiltərənin mövqeyini möhkəmləndirmişdi. Belə ki, Nadirin hərbi kampaniyalarının yaratdığı güc boşluğu və Moğol hakimiyyətinin zəifləməsi nəticəsində ingilislər Benqal bölgəsini ələ keçirmək imkanına malik olmuşdur (Бутков, 1869, ч. I, с. 208)..

Butkovun məlumatına görə, Nadir şah səfərdən geri dönərkən onun topladığı böyük miqdardakı xəzinənin əhəmiyyətli hissəsi Maratx dəstələrinin quldur basqınları nəticəsində qarət edilmiş, bir hissəsi öz əsgərləri tərəfindən mənimsənilmişdir. Bundan əlavə, həmin sərvətin müəyyən bir qismi çay keçidləri zamanı itkiyə məruz qalmışdır (Бутков, 1869, ч. I, с. 208). Buna bənzər məlumatı Aksvörti də vermişdi: "*Çinab çayını keçən zaman körpünün dəmir kəndirləri qırılmış, su qayıqlara dolmuş və bir hissə əsgər çaya düşərək boğulmuşdur. Hadisədən sonra qayıqlar, sallalar, canlı qüvvə və minik heyvanlarının nizama salınması tələb edilmiş, bu isə səfərin müddətini uzatmışdır. Nadir şah adamlarının və daşıdıqları yüklərin yoxlanılmasını əmr etmiş, hər kəsin müəyyən olunmuş miqdardan artıq qənimət mənimsəməməsi barədə xəbərdarlıq etmişdir; buna baxmayaraq, bəzi hərbçilər oğurladıqları qənimətləri torpağa basdırmaq və ya çaya atmaq yolunu seçmişdi*" (Aksvörti, 2018, s. 272).

Butkov, 1739-cu ilin aprel ayının sonunda Nadir şahın Dehlini tərk etməsi ilə bağlı məlumatında tarixi qeyri-dəqiqliyə yol vermişdir. Arxiv və digər mənbələrə əsasən, Nadir şah şəhərdə 52 gün qalmış və Dehlini 16 may 1739-cu il tarixində tərk etmişdir (Tahirzadə, 2002, s. 26).

1740-cı ilin yazında Qəndəhara, daha sonra Herata qayıdan Nadir şah buradan Orta Asiya istiqamətində yeni yürüşə başladı. Butkovun məlumatına görə, o, əvvəl Xivəni, daha sonra isə Buxaranın bir hissəsini ələ keçirərək, burada öz qarnizonlarını yerləşdirdi. Bu yürüşlər nəticəsində Əfşar dövlətinin təsiri Səmərqəndədək uzanmışdı (Бутков, 1869, ч. I, с. 209).

Nadir şahın bu genişlənmə siyasəti Rusiya imperiyasında da ciddi narahatlıq doğurmuşdu. Butkov yazır ki, Orenburq xəttində Nadir şahın mümkün irəliləməsi ehtimalına qarşı fövqəladə ehtiyat tədbirləri görülmüş, sərhəd qoşunları döyüş vəziyyətinə gətirilmişdi.

Butkovun məlumatına əsasən, Nadir şah 1740-cı ilin əvvəllərində Moğol üzərindəki qələbəsi haqqında məlumatı Peterburq sarayına çatdırmaq məqsədilə yaxın qohumu Sərdar xanı 16 min nəfərlik qoşun və 20 top ilə diplomatik səfirlik kimi göndərmişdi. Lakin Rusiya sarayı bu səfərin hərbi məqsədlərlə bağlı ola biləcəyindən ehtiyat etmiş, sərhədlərdə hərbi hazırlıqları gücləndirmişdi.

Butkov yazır: "*General-mayor Stepan Apraksin nümayəndə göndərərək bildirmişdir ki, Həştərxandan (bəlkə Kızlyardan) Moskva istiqamətinə qədər uzanan geniş çöllərdən keçilməsi səbəbindən bu qədər insan üçün ərzaq və yem təmin etmək mümkün deyil, bu səbəbdən yalnız 3 min nəfərin səfərə çıxarılmasını, qalanların isə geridə saxlanılmasını tövsiyə etmişdir. Təklif səfiri dayandırmış və o, hökmdara məlumat göndərmişdir. Hökmdar səfirə göstəriş vermişdir ki, saraya qədər onu müşayiət edəcək şəxslərin sayı barədə rus komissarları ilə razılaşsın. Beləliklə, səfir yalniz 1741-ci ilin iyulun əvvəlində Peterburqa çata bilmişdir*" (Бутков, 1869, ч. I, с. 209). Butkov qeyd edir ki, səfirin 1741-ci ilin iyulunda paytaxta daxil olması "mükəmməl təntənə və diplomatik nümayiş" xarakteri daşıyırdı (Бутков, 1869, ч. I, с. 209).

Səfirin gətirdiyi hədiyyələr arasında 14 fil, çoxlu qiymətli daş-qaş və almazlar da var idi. O, imperatorun anası, hökmdar naibəsi Böyük knyaginya Annaya ünvanladığı nitqdə Nadir şahın Moğol imperiyasından əldə etdiyi qənimətləri Rusiya ilə bölüşmək istədiyini bildirmişdi. Bununla belə, Peterburq sarayında bu səfirliyin məqsədi ilə bağlı şübhələr mövcud idi. Butkov yazır ki, bəzi dövlət xadimləri Nadir şahın əsl niyyətinin Həştərxanı ələ keçirmək və Rusiyanın zəif sərhədlərindən istifadə etməklə öz nüfuzunu şimala qədər genişləndirmək olduğundan ehtiyat edirdilər.

Müəllif həmçinin maraqlı bir məqamı vurğulayır: Nadir şahın imperatriça Yelizaveta Petrovna ilə evlənmək təklifi və xristianlığı qəbul edəcəyinə dair vədi də bu səfirliyin qeyri-adi xarakterini göstərirdi. Butkov qeyd edir ki, həmin dövrdə Nadir şahın yaşı artıq altmışa yaxın idi və bu təklif Rusiya sarayında qəti şəkildə qəbul edilməmişdi (Бутков, 1869, ч. I, с. 210). Butkov tərəfindən təqdim edilən bu məlumatın doğruluğu digər mənbələrdə təsdiqlənmir və mövcud elmi ədəbiyyat çərçivəsində rast gəlinmir.

Nadir şahın 1738–1741-ci illərdəki yürüşləri onun hərbi istedadını və hakimiyyət ambisiyalarını nümayiş etdirsə də, uzunmüddətli siyasi sabitlik gətirmədi. Butkovun təhlilinə əsasən demək olar ki, bu ekspansiyalar Əfşarlar imperiyasının sərhədlərini genişləndirmiş, lakin iqtisadi və sosial baxımdan onu zəiflətdi. Nadir şahın Hindistan yürüşü qısa müddətli zənginlik gətirsə də, ordunun nizam-intizamının pozulması və daxili iğtişaşların artması ilə nəticələndi.

P.Q.Butkovun əsərində Nadir şahın fəaliyyəti yalnız Qafqaz tarixi kontekstində deyil, həm də beynəlxalq münasibətlər sisteminin dinamikasında qiymətləndirilir. Belə ki, onun yürüşləri həm Rusiya, həm Osmanlı, həm də İngiltərə kimi böyük dövlətlərin siyasətinə birbaşa təsir göstərmiş, Cənubi və Orta Asiyada güc balansını yenidən formalaşdırmışdı.

XVIII əsrin ortalarında Nadir şahın Şimalı Qafqaz istiqamətində həyata keçirdiyi hərbi yürüşlər onun imperiya miqyaslı ekspansionist siyasətinin mühüm mərhələsini təşkil etmişdir. P. Q. Butkovun məlumatına əsasən, şahın sözügedən hərbi yürüşlərə başlamasının birbaşa səbəbi Dağıstan tayfalarının — xüsusilə ləzgilərin və dağıstanlıların Gürcüstan əyalətlərinə ardıcıl basqınlar edərək həmin əraziləri talan etməsi olmuşdur. Bu hadisələr Nadirin Hindistan səfəri zamanı baş vermiş, nəticədə bölgədə yaranan hakimiyyət boşluğu Şimali Qafqaz xalqlarının fəallaşmasına şərait yaratmışdır (Бутков, 1869, ч. I, с. 210–211).

Butkov yazır ki, Nadirin qardaşı İbrahim xan Gəncə və Şirvan istiqamətində hərbi əməliyyatlara rəhbərlik etsə də, ləzgilər və onların müttəfiqləri qarşısında ağır itkilər vermiş, nəticədə döyüşlərdə həlak olmuşdur. Bu hadisə Nadir şah üçün həm hərbi, həm də siyasi baxımdan ciddi zərbə olmuş, onun Qafqaz siyasətində daha sərt və intiqam yönümlü addımlar atmasına səbəb yaratmışdır. Butkovun qeyd etdiyi kimi, məhz bu hadisədən sonra Nadir şah Dağıstanın tam tabe etdirilməsi məqsədilə 1741-ci ildə böyük bir ordu ilə Qəzvindən Qafqaz istiqamətində yürüşə çıxmışdır (Бутков, 1869, ч. I, с. 211).

Müəllifin təsvirindən aydın olur ki, Nadir şahın Dağıstan yürüşünün motivləri təkcə hərbi xarakter daşımırdı. O, bu yürüşlə həm də bölgədə rus təsirini məhdudlaşdırmaq, həm də İranın Şimali Qafqaz üzərində hegemonluğunu bərpa etmək niyyətində idi. Butkovun qeydlərinə görə, Avropa saraylarında — xüsusilə Fransada — bu yürüşün Rusiya ilə potensial qarşıdurmaya səbəb ola biləcəyi barədə müzakirələr aparılırdı (Бутков, 1869, ч. I, с. 211). Beləliklə, Nadirin hərbi əməliyyatları təkcə lokal üsyanların yatırılması kimi deyil, həm də geosiyasi mahiyyət daşıyan, imperiya səviyyəli strategiyanın tərkib hissəsi kimi dəyərləndirilə bilər.

Bununla belə, Butkov Nadirin yürüşünün son dərəcə uğursuz nəticələr verdiyini vurğulayır. Dağlıq relyef, sərt iqlim, ərzaq çatışmazlığı, həmçinin yerli tayfaların partizan müharibəsi şah ordusunu zəiflətmiş, taun kimi xəstəliklərin yayılması isə vəziyyəti daha da ağırlaşdırmışdı. Nadirin ordusunun ərzaq təminatında yaranan böhran nəticəsində şahın ordusu ciddi itkilər vermişdi. Müəllif qeyd edir ki, bu dövrdə Nadirin Dərbənd yaxınlığında saldığı düşərgə "İran-xərab" adlandırılırdı — yəni "İranın məhvi" və ya “viran edilməsi” mənasını ifadə edir. Bu ad ona görə verilmişdir ki, Nadir öz düşərgəsini bu dar keçiddə yerləşdirdiyi zaman qoşun üçün ərzağın İranın daxili bölgələrindən buraya çatdırılması son dərəcə çətinliklə həyata keçirilirdi. Bununla belə, ləzgilər bu əraziyə də mütəmadi olaraq hücum edir, qamışlıqların arxasında gizlənərək yoldan keçənləri talayır, əsir götürür və qətlə yetirirdilər (Бутков, 1869, ч. I, с. 212–213). Aksvörti də adın bu cür istehzalı olmasının həqiqətə çevrilərək, Nadirin təssəvur belə etməyəcəyi qədər haqlı olduğunu sübuta yetirdiyini vurğulayır ” (Aksvörti, 2018, s. 310).

Nadir şahın 1742-ci ilin yay və payız aylarında yenidən Dağıstan ərazisində apardığı döyüşlər də uğursuz olmuşdur. Onun Avar xanlığına qarşı hücumları, Tibel kəndinin mühasirəsi və Qaraqaytaq istiqamətindəki əməliyyatları nəticəsiz qalmışdır. Üstəlik, şah ordusunda daxili nizam-intizamın pozulması və Rzaqulu Mirzə ilə bağlı hadisə Nadirin siyasi və mənəvi vəziyyətinə mənfi təsir göstərmişdir. Oğlunun sui-qəsd cəhdinə görə görmə qabilliyyətindən məhrum edilməsi, Butkovun yazdığı kimi, şahın psixoloji durumunda dərin sarsıntı yaratmış, üç gün öz hərəmindən çıxmamışdı. Butkov yazır: "*Nadir Şah üç gün ərzində qəm-qüssə içində hərəmindən çıxmadı, çünki Rzaqulu Mirzə taxtının ən layiqli varisi idi. Məyusluqdan özünü hərbi əməliyyatlarla rahatlatmaq məqsədilə noyabr ayında Qaraqaytağa yürüş etdi, lakin burada məğlub oldu.*" (Бутков, 1869, ч. I, с. 218).

Bu baxımdan, Nadirin Dağıstan yürüşü həm strateji, həm hərbi, həm də psixoloji baxımdan onun hakimiyyətinin dönüm nöqtəsi sayılır. Əgər Hindistan yürüşü onun gücünün zirvəsini təcəssüm etdirirdisə, Dağıstan yürüşü bu gücün sarsılmasının, ordunun tənəzzülünün başlanğıcı olmuşdur.

Nadir şahın 1741–1742-ci illərdə Dağıstana yürüşü Əfşar imperiyasının hərbi ekspansiyasının son cəhdlərindən biri kimi qiymətləndirilə bilər. Bu yürüş bir tərəfdən Qafqaz xalqlarının müstəqillik uğrunda dirənişini, digər tərəfdən isə imperiyanın daxilində böhranların kəskinləşməsini nümayiş etdirir. Butkovun əsərində həmin hadisələrin geniş və təfərrüatlı şəkildə təsvir edilməsi, bir tərəfdən, Rusiya tarixşünaslığında Qafqaz məsələsinin konseptual çərçivəsini, ideoloji meyillərini nümayiş etdirirsə, digər tərəfdən isə Nadir şahın Qafqaz siyasətinin real-geosiyasi nəticələrinin elmi rekonstruksiyası və analitik qiymətləndirilməsi üçün dəyərli faktoloji baza formalaşdırır.

1743-cü ilin fevral ayında Nadir şah həm Türkiyə, həm də İran daxilində qarşılaşdığı təhlükələr barədə məlumat aldı. O, sərhədlərdə, xüsusən Ərzurum, Qars və Bağdad bölgələrində türk qoşunlarının İran ərazisinə hücüm etmək üçün artırıldığını öyrəndi. Eyni zamanda, Xorasandan oğlu Nəsrullah Mirzənin nəzarətində olan Xivə və Buxaralıların üsyan etdiyi və Nadirin Buxarada saxladığı qarnizonunu məhv etdikləri, eləcə də İran vilayətlərinə (Əfşar imperiyasına) hücum etməyi planlaşdırdıqları məlum oldu. (Бутков, 1869, ч. I, с. 226).

Bu cür təhdidedici məlumatların əldə olunması Nadir şahı həmin ilin fevralında İran ərazisinə geri dönüş hərbi kampaniyasını başlatmağa vadar etdi. Onun Şimali Dağıstanda apardığı iki illik səylərin nəticələri yalnız girovların (“amanat”) alınması və Qaraqaytaq, Qaraquraş, Tsudaxar, Aquşa və qismən Qumuq tayfalarının tabe edilməsi ilə məhdudlaşırdı. Lakin Qazıqumuq, Canqutay, Avar (şamxal) və digər dağıstanlılar onun hakimiyyətini tanımamışdır (Бутков, 1869, ч. I, с. 226). .

Nadir şahın Dağıstandan geri dönüşü zamanı, Dərbənddə bir qoşun korpusu və ona tabe olan xalqların idarəsi üçün Əbdalı Qani xan təyin edildi. Şah özünə məxsus qızıl ehtiyatlarını, qiymətli qab-qacağı və digər dəyərli əşyaları iyirmi dəvədən ibarət karvanla Muğan düzünə göndərdi. Maddi sərvətlərin digər hissəsi – xüsusilə də iri həcmli mallar – təhlükəsizlik və saxlanma baxımından daha əlverişli hesab edilən Xorasandakı Hilat qalasına yola salındı. Sonradan şah özü qoşunlarla birlikdə Dərbənddən Muğan düzünə hərəkət etdi. Bu dövrdə sərt qış şəraiti, ərzaq çatışmazlığı və yüksək itki nəticəsində orduda böyük çətinliklər meydana gəldi. İnsan və mal-qaranın tələfi o qədər ciddi idi ki, Samur çayından Şabrana qədər 55 verstlik yol boyunca insan meyitləri və leşlərlə örtülmüşdü; eyni zamanda şahın öz axurundan 1000-dən çox qatır yolda həlak olmuş, aclıq və soyuqdan xeyli insan ölmüşdü (Бутков, 1869, ч. I, с. 227).

Təxminən 1743-cü il martın 20-də Nadir Şah Muğan düzünə daxil oldu. Burada o, həm insan qüvvəsinin və təsərrüfat ehtiyatlarının bərpası ilə məşğul olur, həm də Osmanlı dövlətinə qarşı nəzərdə tutulan hərbi əməliyyatların hazırlıq mərhələlərini həyata keçirirdi. Bir ay sonra şah Muğan düzündən Təbrizə qalxdı və burada türklərə qarşı müharibəyə başlamağı planlaşdırdı. Butkov yazır: “*Onun strateji məqsədləri arasında İstanbulu ələ keçirərək özünü türk sultanı elan etmək və oğlu Nəsrullah mirzəni İran şahı təyin etmək, daha sonra isə Rusiyaya qarşı da hərbi əməliyyatlara başlamaq nəzərdə tutulmuşdu. Lakin 1743-cü ilin sonuna qədər Nadirin ciddi hərbi hərəkətləri müşahidə olunmamışdı*” (Бутков, 1869, ч. I, с. 227).

Butkovun qeyd etdiyi kimi, Nadir şah Xəzər dənizində Avropa üsulu ilə gəmilər inşa etmək üçün də səylər göstərmişdir. İngilis kapitanı Elton 1737–1738-ci illərdə Orenburq Komissiyasında çalışmış, həmçinin Gilanda faktorluq yaratmışdır. Nadir 1743-cü ildə Eltonu öz xidmətinə cəlb edərək, onun vasitəsilə qoşun və ərzağın daşınmasında və Xəzər dənizində hərbi əməliyyatlarda dəstək almağı planlamışdır. Elton Nadirə öz gəmisi ilə ərzaq və qoşunları rus tərəfinə çatdırmaq imkanını təklif etmişdir (Бутков, 1869, ч. I, с. 221–222).

Nikolas Qvosdevin məlumatına görə, Nadir Şah Teymurazın nümayiş etdirdiyi sədaqəti nəzərə alaraq onu Kaxetiyanın legitim hökmdarı kimi təsdiqləmiş və əlavə olaraq Kartlinin əsas inzibati bölgələrindən biri olan Araqvinin idarəçiliyini də onun ixtiyarına vermişdir. Bunun müqabilində Teymurazın oğlu İrakli Nadir şahın xidmətinə daxil olmuş, 1739-cu ildə isə Hindistana yürüşü zamanı onun hərbi komandanlarından biri qismində çıxış edərək şah ordusunda mühüm rol oynamışdır (Qvosdev, 2000, p.15).

Türk (Osmanlı) qoşunlarının Kartlini ələ keçirmək cəhdləri davam edərkən, Ruisi türk qüvvələrinin nəzarətinə keçmiş, farslar isə Qori şəhərini işğal etmişdilər. Osmanlı tərəfi müəyyən məbləğdə maliyyə vəsaitini Dağıstana yönəldərək ləzgi hərbi qüvvələrini muzdlu şəkildə cəlb etmək və onları öz siyasi-hərbi maraqları istiqamətində səfərbər etmək niyyətində idi. Bu xəbəri eşidən Kaxetiya çarı Teymuraz oğlu İrakliyə, müvafiq tədbirlər görməyi əmr etdi. İrakli qoşun toplayaraq Araqvi çayı yaxınlığında türklərə hücum etdi, onları dağıtdı və xeyli miqdarda türk xəzinəsini ələ keçirdi. Beləliklə, 1744-cü ildə şah Nadir Kartli krallığını Teymuraza verdi, Kaxetiyada isə oğulu İrakliyi kral təyin etdi. Nadir Teymuraza taxt-tac mərasiminin təşkilinə icazə verdi və taçqoyma mərasimində iştirak etmək üçün bir çox tanınmış şəxsləri xüsusi olaraq mərasimə göndərdi (Бутков, 1869, ч. I, с. 230). Rayfield 1745-ci il 1 oktyabr tarixində Mtsxetada keçirilmiş birgə tacqoyma mərasimi ilk dəfə olaraq fars şahının (Nadir şah) Gürcüstanın xristian monarxlarını tam şəkildə tanıması faktını rəsmi şəkildə təsdiq etdiyini bildirir (Rayfield, 2012, p.233). Baumerin də qeyd etdiyi kimi, Nadir şahın həyata keçirdiyi siyasi tədbirlər Kartli və Kaxetyanın sonrakı dövrdə birləşməsi üçün əlverişli şərait yaratmışdır. Tədqiqatçının fikrincə, xüsusilə də 1762-ci ildə II İraklinin atasının vəfatından sonra Kartlini irsən əldə etməsi nəticəsində baş verən siyasi konsolidasiya müəyyən mənada Nadir şah dövründə qurulan nizamın və regiondakı güc balansının təsiri ilə mümkün olmuşdur (Baumer, 2024, p. 108).

Kartlidə güclü təsirə malik olan knyaz Qivi Amilaxvari, Rusiyada yaşayan VI Vaxtanq nəslinə sadiqliyi ilə seçilirdi və həmin dövrdə şahzadə Bakarın (Kartlinin qanuni varisi) naibi kimi fəaliyyət göstərirdi. Bu səbəbdən, o, Kaxetiya çarı II Teymurazın 1744-cü ildə Kartli üzərində hökmranlıq etməsinə ciddi şəkildə əngəl olmuşdur. Eyni zamanda, knyaz Qivi Amilaxvari Osmanlı tərəfinə meyilli olub, Surami qalasını onların nəzarətində saxlayırdı. Çar Teymuraz isə qalaya təsir göstərmək məqsədilə müəyyən hərbi tədbirlər tətbiq etmiş, barıtdan istifadə edərək onun müdafiəsini zəiflətdirmişdir (Бутков, 1869, ч. I, с. 228-229). Qvosdev də bu haqda məlumat verərək bildirir ki, knyaz Qivi Amalaxvarı bir qrup zadəganlarla birlikdə həm Nadır şaha, həm də Teymuraza sədaqətindən imtina etdi və VI Vaxtanqın oğlu Bakarın taxta cıxarılması məqsədilə Osmanlı sarayına müracət etmişdi (Qvosdev, 2000, p.15).

1745-ci ildə Surami beş ay müddətinə mühasirədə saxlanılmışdı; bu prosesin sonunda Teymuraz qalaya rəhbərlik edən və üsyançıların sonuncusu hesab olunan Givi Amilaxvarini İrana (Nadir şaha) təhvil vermişdir (Rayfield, 2012, p.233).

Nadir şah Amilaxvarinin cəzalandırılması məsələsində ona iki alternativ təqdim etmişdi: fiziki cəza kimi korluğa məhkum edilmək və ya İrana sürgün olunmaq. Amilaxvari ilkin olaraq korluq cəzasını qəbul etsə də, qərar sonradan dəyişdirilmiş və o, sürgünə göndərilmişdir. İran ərazisinə aparıldıqdan sonra Amilaxvari islamı qəbul etməyə məcbur edilmiş və daha sonra yenidən İran sarayının qvardiya komandanlığı vəzifəsinə təyin olunmuşdur (Чапичадзе, 2016, с. 154 ).

Nadir şah hakimiyyətinin son illərində həyata keçirdiyi siyasətlər nəticəsində xalqın ciddi narazılığına səbəb olmuş, ətrafında qorxu və dəhşət yaratmağa başlamışdı. Ölkənin müxtəlif bölgələrində əhali narazılığını üsyanlar vasitəsilə ifadə etməyə başlamışdır.

Butkovun məlumatına görə, Nadir şah 1747-ci ilin may ayının 7-dən 8-nə keçən gecə sui-qəsd nəticəsində qətlə yetirilmişdir. Bu sui-qəsdi həyata keçirən şəxslər arasında İrəvanlı Məhəmməd xan (keşikçi-başı), Urmiyalı Musa bəy, Afşar tayfasından Məhəmmədqulu xan yer almışdır. Müəllif hadisənin baş vermə səbəbini Nadir şahın ömrünün son illərində idarəçilik üslubunun daha da qəddar xarakter alması, tabe etdiyi xalqları dözülməz vergilərlə yükləməsi və sərt cəzalarla əzməsi ilə izah edir. (Бутков, 1869, ч. I, с. 232). Butkovun Nadir şahın öldürülməsi ilə bağlı təqdim etdiyi məlumat tarixi faktlarla tam üst-üstə düşmür. Mövcud elmi ədəbiyyatın əksəriyyətində bu hadisənin 1747-ci il 20 iyun tarixlərində baş verdiyi göstərilir.

Bu haqda ətraflı məlumat verən Ədalət Tahirzadə yazır ki, Nadir şahın yaxın qohumları — şəxsi mühafizə dəstəsinin rəhbəri Məhəmmədqulu xan Əfşar və saray işləri idarəsinin rəisi Saleh xan Qırıqlı Əfşar, eləcə də Məhəmməd bəy Qacar İrəvanlı, Musa bəy Əfşar və Qocu bəy Əfşar Urmiyalı onun əleyhinə fəaliyyət göstərirdilər. Bəzi mənbələrə əsasən, Əliqulu Mirzə gizli şəkildə bu şəxslərlə əlaqə quraraq əmisinə qarşı sui-qəsdlərin hazırlanmasına təşəbbüs göstərmiş və məhz onun təşəbbüsü ilə həmin cinayətkarlar 20 iyun 1747-ci ildə Nadir şahı qətlə yetirmişlər (Tahirzadə, 2002, s. 39).

## NƏTİCƏ

Nadir şahın fəaliyyətləri onun həm müdrik dövlət xadimi, həm də sərkərdə kimi strateji qabiliyyətlərini nümayiş etdirir. O, Hindistan və Orta Asiya yürüşlərində böyük hərbi bacarıq göstərərək, yalnız regionda deyil, geniş coğrafiyada nüfuzunu möhkəmləndirmişdir. Şimali Qafqaz və Gürcüstan üzərində nüfuzunu genişləndirərkən təkcə hərbi gücündən istifadə etməmiş, həm də diplomatiya və yerli idarəçilik üsullarını ustalıqla tətbiq etmişdir. Qət edilən yürüşlər və yerli hakimlər, knyazlar və çarlarla qurulan müdrik münasibətlər göstərir ki, Nadir şah hər bir regionun özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq məqsədyönlü və effektiv siyasət yürüdürdü. Bu baxımdan, Nadir şah Şərqin son sərkərdəsi olmaqla yanaşı, həm də Hindistan və Orta Asiya yürüşləri ilə genişləndirilmiş imperiya siyasətini həyata keçirən, müdrik və nüfuzlu bir dövlət xadimi kimi tarixi şəxsiyyət olaraq qiymətləndirilmış, diplomatik ustalığı ilə öz dövründə tarixi bir lider olaraq seçilmişdir

Akademik P.Q.Butkov, Rusiya maraqları prizmasından çıxış edərək Nadir şahın fəaliyyətini tənqid etməyə və bəzi mənfi məqamları vurğulamağa meylli olsa da, eyni zamanda müəllifin əsərlərində şahın hərbi sərkərdəlik qabiliyyətini, taktiki ustalığını və diplomatik fəaliyyət sahəsindəki geniş bacarıqlarını obyektiv və detallı şəkildə təsvir etdiyi müşahidə olunur. Bu yanaşma Butkovun əsərinin Nadir şah dövrünün hərbi, siyasi və diplomatik aspektlərinin sistemli şəkildə öyrənilməsi baxımından elmi əhəmiyyətini artırmış olur.

### ƏDƏBİYYAT SİYAHISI


1. Aksvörti, M. (2018). Nadir Şah. Bakı: Şərq-Qərb.
2. Baumer, C. (2024). History of the Caucasus. Volume Two: In the Shadow of Great Powers.
3. Бутков, П. Г. (1869). Материалы для новой истории Кавказа с 1722 по 1803 г. Ч. I. Типография Императорской Академии наук.
4. Чапичадзе, З. (2016). История Грузии: Популярные данные из европейских источников об этноистории Кавказа и ее роли в европейской цивилизации. Тбилиси.
5. Gvosdev, N. K. (2000). Imperial policies and perspectives towards Georgia, 1760–1819 St Antony's College, Oxford.
6. Rayfield, D. (2012). Edge of empires: A history of Georgia . Reaktion Books.
7. Tahirzadə, Ə. (2002). Nadir şah Əfşar (Tərcümeyi-hal oçerki). Bakı: Kür nəşriyyatı.
8. Yılmaz Karadeniz (2012) İran Tarihi (1700-1925) Selenge Yayınları İstanbul,



### ABSTRACT

### POLİTİCAL PROCESSES İN THE SOUTH CAUCASUS DURİNG THE AFSHAR EMPİRE PERİOD AS INTERPRETED İN P. G. BUTKOV’S RESEARCH

**Aynura Afandiyeva**

The first half of the eighteenth century was characterized by highly complex and contradictory developments in the political history of the South Caucasus. The decline of the Safavid Empire created a profound political vacuum, destabilizing the regional balance of power and intensifying the rivalry for dominance between the Ottoman and Russian Empires. It was under these turbulent circumstances that Nadir Shah Afshar (1736–1747) rose to power, emerging as a transformative figure whose military-political reforms and centralization policies exerted substantial influence on both the internal dynamics of the region and the broader geopolitical environment. His military campaigns played a decisive role in reshaping the political landscape of the South Caucasus and in redefining Russo-Ottoman interactions.

P. G. Butkov’s work “Materials for the New History of the Caucasus, 1722–1803” provides a detailed examination of this period, analyzing the events in the context of Nadir Shah’s domestic governance and external expansionist ambitions. The present study aims to critically evaluate Butkov’s portrayal of Nadir Shah’s campaigns and their repercussions for the political configuration of the South Caucasus, to assess the

extent to which his narrative corresponds with the historical realities of the era, and to determine how these accounts are interpreted and contextualized within contemporary historiography.

**Keywords:** *South Caucasus, Nadir Shah Afshar, Afsharid state, geopolitical situation, military campaigns*

## АННОТАЦИЯ

## ПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ НА ЮЖНОМ КАВКАЗЕ В ПЕРИОД АФШАРСКОЙ ИМПЕРИИ В ИНТЕРПРЕТАЦИИ ИССЛЕДОВАНИЙ П. Г. БУТКОВА

**Айнура Афандиева**

Первая половина XVIII века характеризовалась чрезвычайно сложными и противоречивыми процессами в политической истории Южного Кавказа. Упадок Сефевидской империи создал значительный политический вакуум, дестабилизировал региональный баланс сил и усилил соперничество за господство между Османской и Российскими империями. Именно в этих турбулентных условиях к власти пришёл Надир-шах Афшар (1736–1747), ставший преобразовательной фигурой, чьи военно-политические реформы и централизаторская политика оказали существенное влияние как на внутреннюю динамику региона, так и на более широкий геополитический контекст. Его военные походы сыграли решающую роль в переосмыслении политического ландшафта Южного Кавказа и в изменении характера российско-османских отношений.

Труд П. Г. Буткова «Материалы для новой истории Кавказа, 1722–1803» представляет собой подробный анализ данного периода, рассматривая события в контексте внутренней политики Надир-шаха и его внешнеэкспансионистских стремлений. Цель настоящего исследования — критически оценить трактовку Бутковым военных походов Надир-шаха и их влияние на политическую конфигурацию Южного Кавказа, определить степень соответствия его повествования реальным историческим процессам эпохи, а также исследовать интерпретацию этих событий в современной историографии.

**Ключевые слова:** *Южный Кавказ, Надир-шах Афшар, государство Афшаридов, геополитическая ситуация, военные походы*